# GÖRKƏMLİ ŞƏXSLƏR ÜZEYİR HACIBƏYLİ HAQQINDA

Üzeyir Hacıbəyov fövqəladə fitri istedadı, böyük fədakarlığı, mükəmməl təhsili, elmi, vətənpərvərliyi, ictimai-siyasi fəaliyyəti ilə xalqımızın böyük şəxsiyyətlərindən biri kimi, dünya korifeylərinin ön sırasında duran, Azərbaycanı təmsil edən görkəmli şəxsiyyət olmuşdur.

***

Üzeyir Hacıbəylinin Azərbaycanda yaratdığı musiqi məktəbi elə bir məktəb olub ki, ondan sonra xalqımız dünyaya bir çox görkəmli bəstəkarlar, musiqiçilər, mədəniyyət xadimləri verib.

***Heydər Əliyev,***
***Ümummilli lider***

Azərbaycan bəstəkarlıq məktəbinin banisi olan Üzeyir Hacıbəyli novator sənətkar kimi milli musiqi xəzinəsini unikal forma və janrlarla zənginləşdirmişdir. O, Şərqin və Qərbin musiqi nailiyyətlərinin dərin vəhdətində dünya musiqisinin qızıl fondunda fəxri yer tutan nadir sənət inciləri meydana gətirmiş, Azərbaycan mədəniyyətinə beynəlxalq miqyasda geniş şöhrət qazandırmışdır.

***

Ömrünü cəmiyyətin mədəni tərəqqisinə həsr edən fədakar ziyalının yüksək mənəvi-estetik dəyərə malik irsi Azərbaycan xalqının XX əsrin ilk onilliklərindən vüsət almış ədəbi-mədəni intibahının aynasıdır.

***

Onun azərbaycançılıq məfkurəsi ilə yoğrulmuş dolğun ictimai-siyasi fəaliyyəti əsl vətənpərvərlik nümunəsidir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

Biz haqlı olaraq fəxr edirik ki, Üzeyir Hacıbəylinin muğam operaları, Fikrət Əmirovun və Niyazinin simfonik muğamları, Qara Qarayevin "Yeddi gözəl" baleti və Cahangir Cahangirovun "Füzuli" kantatası, Vaqif Mustafazadənin muğam mövzularına yaratdığı caz kompozisiyaları və xalq çalğı alətləri orkestri üçün yazılan əsərləri muğamın dərin potensialını bir daha üzə çıxararaq, Azərbaycan mədəniyyətinin qızıl fonduna daxil olubdur.

***

O bu dünyaya öyrətmək üçün gəlmişdi. Musiqi yaradıcılığında və ədəbi aləmdə atdığı ilk addımlar onun heç bir çərçivəyə sığmayan nadir istedadından xəbər verirdi...

Üzeyir irsi, həqiqətən böyük bir dünyadır. Bu dünyanın əzəməti ondadır ki, Üzeyir bəy bu gün də əsl pedaqoq kimi bizi tərbiyə edir, bizə kədərlənməyi və gülməyi öyrədir. Muğam dramaturgiyasının sirlərini açır. Aşıq sənətinin qüdrətini dərk etməyə kömək edir.

***Mehriban Əliyeva,***
***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti***

Üzeyir sənətinin qüdrəti orasındadır ki, bəstəkarımız Azərbaycan xalq musiqisinin, muğamlarımızın bütün incəliklərini bilir, onun məlahətini duyur, öyrənir və xalqın sevəcəyi yeni əsərlər yaratmaq üçün geniş axtarışlar aparırdı.

***

Üzeyir sənətinin qüdrəti orasındadır ki, bəstəkarımız Azərbaycan xalq musiqisinin, muğamlarımızın bütün incəliklərini bilir, onun məlahətini duyur, öyrənir və xalqın sevəcəyi yeni əsərlər yaratmaq üçün geniş axtarışlar aparırdı.

***Bülbül,***
***müğənni, Xalq artisti***

Üzeyir Hacıbəyov musiqi sənətinin hansı sahəsinə müraciət etmişsə, onun ilk yol göstəricisi olmuşdu. O, dahi bəstəkar olmaqla bərabər, həm də görkəmli mütəfəkkir idi, yaradıcı məsələlərin həllində yalnız özünün zəngin intuisiyasına arxalanmışdı. Azərbaycan musiqisinin tarixində ilk dəfə addım atdığı yol haqqında çox düşünürdü, cəmiyyətdə yaranmış vəziyyəti, tarixi şəraiti təhlil edir, özünün yaradıcı axtarışlarının təsdiqi üçün nəzəri əsaslar axtarır və tapırdı.

Azərbaycan bəstəkarlıq məktəbinin yaradıcısı, məşhur Sovet bəstəkarı Üzeyir Hacıbəylinin musiqisi xalqımızın ürəyində yaşayır, onun mənəvi həyatını zinətləndirir.

***Qara Qarayev,***
***bəstəkar, Xalq artisti***

Məşhur bir əfsanədə Anteyin qeyri-adi qüdrətini onun ayaqlarının torpağa dayanmasında, torpaqla bağlılığında görürlər. Üzeyir Hacıbəyli özü də bu müqayisəni sevirdi və bəstəkarın gücünü-qüvvətini onun xalq həyatına, xalq sənətinə bağlılığında görürdü. Biz böyük Üzeyir yaradıcılığından bu Antey qüdrətinin sirlərini hələ çox öyrənməliyik.

***

Mən Üzeyir müəllimdən xalq musiqisinin paklığını mənimsəmişəm. Üzeyir musiqisini nə qədər dinləsəm, mənə elə gəlir ki, ilk dəfədir eşidirəm, hər dəfə o mənə təzə görünür. Yaşa dolduqca dərk etmişəm ki, nə yaxşı bu böyük sənətkarla durub-oturmaq səadəti mənə də nəsib olub, onun unudulmaz məsləhətlərini eşitmişəm.

***Fikrət Əmirov,***
***bəstəkar, Xalq artisti***

Biz fəxrlə qeyd etməliyik ki, Üzeyir Hacıbəyovun “Leyli və Məcnun”undan “Koroğlu”suna kimi Azərbaycan operasının otuz ildə keçdiyi yüksək inkişaf yolunu Qərbi Avropanın bəzi məmləkətlərində opera sənəti iki yüz ilə keçmişdir.

***Niyazi,***
***bəstəkar, dirijor, Xalq artisti***

Azərbaycan xalqının ləyaqətli oğlu olan Üzeyir Hacıbəyov istedadlı bəstəkar, qabil sənətkar olmaqla, gənclərimizin tərbiyəsi ilə məşğul olan ən yaxşı müəllimdir.

***Səid Rüstəmov,***
***bəstəkar, Xalq artisti***

Üzeyir öz xalqını sevirdi, onun üçün yaradırdı, öz əsərlərində bu xalqın fikirlərini və arzularını ifadə edirdi. Buna görə də həmişə xalqın qəlbində yaşayacaqdır.

***Şövkət Məmmədova,***
***opera müğənnisi, Xalq artisti***

Müasir Azərbaycan musiqisinin bir çox janrlarının əsasını məhz Üzeyir Hacıbəyli qoymuşdur.

***Əfrasiyab Bədəlbəyli,***
***Xalq artisti, ilk milli baletimizin müəllifi***

Azərbaycan musiqisində, musiqi elmində Mir Möhsün Nəvvabdan sonra yeni dövrü, yeni mərhələni təşkil edən böyük sənətkar Üzeyir Hacıbəyov olmuşdur.

***

Üzeyir Hacıbəyli sənəti Azərbaycan dühasının dünya mədəniyyət xəzinəsinə bəxş etdiyi ən nadir incilərdəndir.

***Zemfira Səfərova,***
***professor, AMEA-nın müxbir üzvü***

...Üzeyir Hacıbəyovun həyatı və yaradıcılıq prinsipləri Azərbaycan bəstəkarları üçün böyük məktəbdir.

***Əşrəf Abbasov,***
***Əməkdar incəsənət xadimi, professor***

Üzeyir Hacıbəyov Azerbaycan xalqının, eyni zamanda, Şərq xalqlarının ölməz sənətkarıdır.

***Firidun Şuşinski,***
***Əməkdar incəsənət xadimi***

“Koroğlu” operası Azərbaycanın opera aləmində öz revolyusion coşğunluğu ilə bədii yenilikləri ilə, parlaq xalq musiqisi ilə son dərəcə yüksək bir yer tutmaqdadır.

***Hüseyn Cavid,***
***yazıçı – dramaturq***

“Koroğlu” operasının məzmun və mündəricəsi Üzeyirin siyasi və ictimai varlığının güzgüsüdür – demək olar.

***Məmməd Səid Ordubadi,***
***yazıçı***

Üzeyir Hacıbəylinin əsərləri yaşadığı mühitin, içində dolandığı xalqın, cəmiyyətin, ifadeyi – hal və keyfiyyətidir.

***Cəfər Cabbarlı,***
***yazıçı, dramaturq***

Üzeyir sənətinin dili bütün xalqlar üçün aydındır. Avropa musiqi mədəniyyətindən, xüsusən nəcib və xeyirxah rus xalqının zəngin musiqi mədəniyyətindən məharətlə istifadə edən bu sənətkar bütün Sovet xalqları üçün əziz və doğmadır.

***Səməd Vurğun,***
***Xalq şairi***

Üzeyir bəy elə sənətkardır ki, onun adı tərif yükü götürmür, o hər hansı tərif pilləsindən yuxarıda duran bir simadır.

***Rəsul Rza,***
***Xalq şairi***

Üzeyir sənət vasitəsilə öz həyatını xalqın xidmətinə vermişdi. Ancaq belə bir sənətkar Azərbaycan operasının şah əsəri olan "Koroğlu" kimi ölməz əsər yarada bilərdi.

***Mirzə İbrahimov,***
***Xalq yazıçısı***

Üzeyirbəy Hacıbəyli musiqimizi nizama salmağa başladı. Yazdığı opera və operattaları ilə şöhrət qazandı. Yalnız özü deyil, bütün millətini aləmə tanıtdı.

***Yusif Vəzir Çəmənzəminli,***
***yazıçı***

Üzeyir kimi böyük qəlbli əsil insanın nəcibliyindən, səxavətindən onu yaxından tanıyanlar dastan yaza bilərlər. Üzeyir doğrudan da öz xalqının böyük oğlu və xadimi idi.

***Mikayıl Abdullayev,***
***Xalq rəssamı***

Azərbaycan sovet musiqisinin təməlini qoyan Üzeyir Hacıbəyli böyük təbii istedad sahibi kimi bir bəstəkar, görkəmli ictimai xadim idi. O, bütün həyatını Azərbaycan Sovet musiqi mədəniyyətinin inkişafına həsr etdi.

***Dmitri Şostakoviç,***
*bəstəkar, SSRİ Xalq artisti*

Üzeyir yalnız Azərbaycan xalqının deyil, bütün Sovet xalqının fəxri və şöhrətidir. Gürcü xalqı onun simasında öz etibarlı dostunu və qardaşını görür.

***Akaki Xorava,***
***gürcü bəstəkarı, SSRİ xalq artisti***